AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

Bakalavr hazırlığı üçün

MUZEY İŞİNİN ƏSASLARI

fənni üzrə

PROQRAM

Sənətşünaslıq 050316:Teatrşünaslıq, Təsviri sənət tarixi və nəzəriyyəsi, Kinoşünaslıq ixtisasları üzrə

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən 09 sentyabr 2024-cü il tarixli 329/32-601 F/2024 əmrlə təsdiq edilmişdir

BAKI - 2024

TƏRTİB EDƏN:

Elfira Hacıbaba qızı Məlikova-Qurbanova
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Muzeyşünaslıq" kafedrasının dosenti,sənətşünaslıq üzrə fəlsəfə doktoru, muzeyşünas alim

ELMİ REDAKTOR:

Nəzmin Rüstəm qızı Cəfərova
AMEA Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr və informasiya şöbəsinin Elektron informasiya şöbəsinin baş mütəxəssisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru

RƏYÇİLƏR:

Nailə Ədalət qızı Əliyeva
AMEA Nizami Gəncəvi adına milli Azərbaycan ədəbiyyatı muzeyinin Beynəlxalq əlaqələr və dünya muzeyləri şöbəsinin müdiri, kulturologiya üzrə fəlsəfə doktoru

Yeganə Məhəmməd qızı Eyvazova
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

İZAHAT VƏRƏQİ

"Muzey işinin əsasları" fənni "Təsviri sənətin tarixi və nəzəriyyəsi", "Teatrşünaslıq" və "Kinoşünaslıq" ixtisaslarında tədris olunacaqdır. "Muzey işinin əsasları" fənni muzeylərin mühüm dayaqları haqqında ilkin bilikləri aşılayır.

Kursun məqsədi – tələbələrə muzey işinin ümumi nəzəri-metodoloji məsələlərinin öyrədilməsi, muzey işinin əsas istiqamətləri, nəzəriyyə və metodikası, muzey işinin əsas anlayışları haqqında ilkin biliklərin verilməsi təşkil edir.

Bu məqsəddən irəli gələrək fənnin vəzifələrinə aşağıdakılar aiddir:

- Dünyada muzey işinin təşəkkülünü zəruri edən amillərin önə çəkilməsi;
- Tələbələrə Muzeylərin sələfləri haqqında geniş anlayışın ötürülməsi;
- Muzey işinin əsas istiqamətləri haqqında ilkin biliklərin çatdırılması;
- Muzeylərin funksiyaları haqqında ətraflı biliklərin verilməsi;
- Sənətşünaslığın təsviri sənət, kino, teatr istiqamətləri üzrə muzeylərinin fəaliyyət məzmunu ilə bağlı biliklərin verilməsi;
- Muzey işinin Muzeyşünaslıq elmi istiqmətində formalaşmış terminoloji lüğəti ilə tanışlıq;
- Tələbələri muzeylərdə aparılan daimi sistem üzrə aparılan işlə tanış etmək;

"Muzey işinin əsasları" fənni üzrə proqram "Teatrşünaslıq", "Sənətşünaslıq" və "Kinoşünaslıq" ixtisaslarında bakalavr təhsil pilləsi üzrə təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur.

Fənnin tədrisinə 5 kredit, ümumi 30 saat (15 saat mühazirə, 15 saat seminar) ayrılmışdır.

"Muzey işinin əsasları" fənni Əsas Təhsil proqramının strukturunda İxtisas fənləri blokunda yerləşir. Hazırkı fənnin ixtisas üzrə olan peşə kompetensiyaları ilə əlaqəliliyinin məzmunu muzey fəaliyyətində tələb olunan nəzəri biliklərin mənimsənilməsindən, ümumi bacarıq və vərdişlərin aşılanması prosesinə təsirdən ibarət-

dir. Bundan irəli gələrək sənətşünas bakalavrlar regionlarda yerləşən muzey və mədəniyyət mərkəzlərində iş aparmağı, muzey və rəsm qalareyalarında, dövlət tarixi və diyarşnaslıq muzeylərində iş aparmağı, bədii qalereyalarda, muzey sərvətləri və xatirə əşyalarının bərpası üzrı üçün elmi bərpa mərkəzlərində iş aparmağı bacarmalıdırlar.

FƏNNİN TƏLİM NƏTİCƏLƏRİ İLƏ İXTİSAS XARAKTERİSTİKASI VƏ PEŞƏ KOMPETENSİYALARI

- Muzey əşyalarının tərifi və funksiyaları, komplektləşdirmənin elmi konsepsiyası muzey fondlarının komplektləşdirilməsinin məqsəd, vəzifə, istiqamət, forma və metodları haqqında sistemli təsəvvürü olacaqdır.
- Muzey əşyalarının uçot- mühafizə sənədləri informasiya sistemi, muzey toplularının elmi təşkili, muzey fondlarının struktur və tərkibi ilə bağlı nəzəri və təcrübi bilik və bacarıqlara yiyələnəcək.
- Muzey əşyalarının təsnifatı, atribusuyası və öyrənilməsi. Muzey fondlarının elmi kataloqlaşdırılması elmi fəaliyyət kimi. Muzey mühafizəsinin elmi metodları. Muzey kolleksiyalarının fiziki cəhətdən qorunması, onların oğurluq, vandalizm aktlarından sığortalanması. Mühafizə rejimləri. Muzey əşyalarının daşınması qaydalarını biləcəkdir.
- Muzey komplektləşdirilməsinin əsası kimi tarixi proses, hadisə, faktların sənədləşdirilməsi nəzəriyyəsini, muzey fondlarının formalaşdıılmasının əsas istiqamət və prinsiplərini, muzey fondlarının formalaşdırılmasının əsas istiqamət və prinsiplərini, toplayıcılıq fəaliyyətinin forma və metodlarını, muzey əşyalarının qeydiyyat qaydalarını biləcəkdir.
- Muzey toplularının elmi təşkili sistemini, muzey əşyalarının elmi təsnifat prinsiplərini, və ətraqf mühitin zəruri təsirlərindən müdafiə qayda və üsullarını, muzey kolleksiyalarının elmi tədqiqi və təsviri metodikasını biləcəkdir.

- Tədqiqatçılıq fəaliyyətində muzey əşyaları və kolleksiyaları ilə bağlı elmi ədəbiyyat, lüğət, məlumat kitabları, kataloq və digər nəşrlərindən istifadə etməyi bacaracaqdır.
- Muzey işinin xüsusi terminologiyasından düzgün istifadə etməyi, tarix və mədəniyyət abidələrinin atribusiyası zamanı elmi təsvir və metodiki tövsiyələr üçün terminlər lüğətindən istifadə etməklə muzey əşyasının ilkin təsvirini tərtib etməyi, muzey əşyasının tarixi və mədəni dəyəri haqqında informasiyanın qeydə alınmasını bacaracaqdır.
- Muzey əhəmiyyətli əşyanın tarixi, mədəni, elmi, bədii və ya memorial dəyərin müəyyənləşdirilməsi metodikasına, muzey toplusundakı muzey əhəmiyyətli əşyaların seçilməsi üçün informasiya toplusu üsullarına. Çöl sənədləşməsinin aparılması vərdişlərinə yiyələnəcəkdir.
- Muzey fondlrının ilkin qeydiyyat sənədləşməsinin tərtibi vərdişlərinə, muzey əşyasının elmi təsviri metodikasına, muzey fondlarının qorunması sisteminin təşkili üsullarına, muzey fond saxlancları və ekspozisiyasında havanın temperaturu və rütubəti, işıqlandırılması göstəricilərinin ölşülməsi və nəzarəti qaydalarına yiyələnəcəkdir.
- Ekspozisiya işinin metodikasına, ekspozisiya sənədlərinin hazırlanması vərdişlərinə yiyələnəcəkdir.
- Muzey mədəni-təhsil fəaliyyətinin əsas mərhələləri, muzeyin mədəni-təhsil fəaliyyətinin baza formaları, muzey auditoriyası və onun öyrənilməsi ilə bağlı biliklərə yiyələnəcəkdir.
- Muzey auditoriyasının müxtəli kateqoriyalardan olanlar üçün ekskursiya mətinləri və metodiki işlərin hazırlanmasını bacaracaqdır.

Mühazirə və seminar məşğələlərinin mövzularına ayrılan saatlar:

Həftələr	Mühazirə mövzularının adı və qısa icmalı	Saat	Müh.	Sem.
	I Bölmə: Muzey işinin əsas istiqamətləri			
1.	**Muzey işinin elmi-nəzəri əsasları**	**4**	**2**	**2**
2.	**Muzey fondlarının muzeyşünaslıq tədqiqatları**	**4**	**2**	**2**
3.	**Muzey ekspozisiyanın elmi konsepsiyası**	**4**	**2**	**2**
4.	**Muzeydə ekskursiya işinin təşkili.**	**2**		**2**
5.	**Muzey işində müasir texnologiyanın tətbiqi.**	**4**	**2**	**2**
	Müasir dövrdə muzey işinin tənzimlənməsinə Dövlət nəzarəti	**2**	**2**	
	II Bölmə: İncəsənət profilli muzeylər: növ və tipləri			
6.	**Bədii muzeylər**	**4**	**2**	**2**
7.	**Teatr muzeyləri**	**4**	**2**	**2**
8.	**Kino muzeyləri**	**2**	**1**	**1**
CƏMİ:		**30**	**15**	**15**

MÖVZULAR VƏ ONLARIN MƏZMUNU

I BÖLMƏ
MUZEYŞÜNASLIQ – MUZEY İŞİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Mövzu 1:Muzey işinin elmi-nəzəri əsasları

Muzeyşünaslığın elmi-ictimai əhəmiyyəti. Muzeyşünaslığın yaranması biliklər sahəsində baş verən inteqrasiya və differensasiya proseslərinin təzahürü kimi. Muzeyşünaslığın qnesioloji kökləri və vəsifələri. Muzeyşünaslığın predmetinin təbiətin və cəmiyyətin inkişafı ilə əlaqədar olan obyektlərdən asılılığı.

Muzeyşünaslığın struktur elementləri elmi-tədqiqatların məzmununu, istiqamətlərini və ümumi problematikasını müəyyənləşdirən əsas amil kimi.

Muzeyşünaslıq sahəzində fundamental və tətbiqi tədqiqatlar, onların xüsusiyyətləri. Muzeyşünaslıq arxivşünaslıq, mətinşünaslıq və kitabşünaslıq və s. kimi elmlərlə əlaqəsi. Muzeyşünaslıq sahəsində tədqiqatların bu elmdən inteqrasiya olmuş bütün fənlərin nəzəri əsasları ilə sıx əlaqəsi.

Xalqın mədəni və intelektual səviyyəsinin artmasıda muzeylərin rolu. Real imkanlardan istifadə etməklə mədəniyyətdə zəruri dəyişikliklərin aparılması.

Mədəniyyəti nümunələrinin etibarli şəkildə toplanıb qorunaraq gələcək nəsillərə çatdırılması və sosial qruplar arasında təbliğində muzeylərin roli.

Muzeylərdə mədəni təhsil yaradıcılığının əsas formaları. Ekskursiya işi muzeylərin sosial mədəni institutlar kimi formalaşmasının əsas amili kimi. Muzey auditoriyasının öyrənilməsi yolları. Sosioloji sorğuların aparılması metodları və əldə olunan nəticələrin muzeyşünaslıq elmində tətbiqi.

Mövzu 2: Muzey fondlarının muzeyşünaslıq tədqiqatları

Muzey əşyalarının əldə edilərək toplanması muzey işinin əsası kimi. "Muzey əhəmiyyətli əşyalar"ın qorunub saxlandığı fond muzeyşünaslığın tədqiqat obyekti kimi.

Əşyalar haqqında: muzeyin fond şöbələrində daxili uçot-mühafizə və elmi sənədlərdə qorunan, eyni zamanda fundamental mənbələrdən və ya tədqiqatlar əsasında alınan bütün informasiya xarakterli sənədlər muzeyşünaslığın tədqiqat obyekti kimi.

Fondların komplektləşdirilməsi muzey əşyalarının fond daxilində aparılan tədqiqat, təsnifat, sistemləşdirmə və interpretasiya işləri ilə birlikdə muzey kolleksiyası məfhumunda cəmləşdirilməsi.

Fondların mahiyyəti muzey əhəmiyyətli əşyaları aşkar etmək və qeydiyyatdan keçirməkdən ibarət olması haqqında.

Muzey əhəmiyyətli əşyaların aşkar edilməsi və elmi qeydiyyatdan keçirilməsi qaydaları. Muzey fondlarında komplektləşdirmə işinin planlaşdırılması. Fondlarda muzey əhəmiyyətli əşyaların düzgün qorunması üçün xüsusi qanunauyğunluqlara əsaslanmaq.

Mövzu 3: Muzey ekspozisiyanın elmi konsepsiyası

Muzey ekspozisiyası muzey tərəfindən elmi konsepsiya və müasir bədii-memarlıq həlli prinsiplərinə uyğun olaraq təşkil olunmuş və yerləşdirilmiş muzey əşyalarının nümayişi vasitəsilə tədris və tərbiyə vəzifələrini həyata keçirən muzey kommunikasiyasının əsas forması kimi. Muzey ekspozisiyasının təşkilinin əsas prinsipləri. Ekspozisiya muzey ilə kütlə arasında əlaqə yaradan əsas kommunikativ vasitə kimi. Əhalinin müxtəlif təbəqələri ilə canlı ünsiyyət yaradan ekspozisiyanın özünəməxsus cəhətləri.

Ekspozisiyanın elmi konsepsiyasının müddəaları:

-maddi və mənəvi mədəniyyətin sərvətləri ekspozisiyanın əsası kimi;

-hər bir eksponatın daha diqqətlə seçilərək nəzərdən keçirilməsi;

-fotosurətlərin, cədvəllərin, dioqramların, maketlərin, mətnlərin və s. muzeydə olması əsas şərtlərdən biri kimi.

Ekspozisiya şöbəsinin və ayrıca götürülmüş eksponatların interyer – dizayn imkanları ilə estetik uyğunluğunu öyrənmək.

Ekspozisiya layihəsinin 3 əsas mərhələsi: elmi layihə, bədii layihə, texniki layihənin formaları.

Ekspozisiyanın qurulmasında bir sıra şərtlər:

-ekspozisiya mövzu planına uyğun olaraq fondlarda mühüm olan əşyaların toplanması;

- ekspozisiya üçün məkanın müəyyən edilməsi, nəzərdə tutulan məkanda hazırlıq işlərinin aparılması;

-ekspozisiyanın elmi layihələşdirmə prosesi;

-ekspozisiyanın mövzu planının akademik səviyyədə hazırlanması;

-tematik-ekspozisiya planının hazırlanması ekspozisiyanın elmi layihələşdirilməsinin sonuncu pilləsi kimi;

Mövzu4: Muzeydə ekskursiya işinin təşkili

Ekskursiya (lat.söz. –səyahət) maraqlı yerlərə, sərgilərə, muzeylərə, təbiət obyektlərinə kollektiv ziyarət kimi. Ekskursiya muzey kommunikasiyasının forması kimi.

Muzeydə ekskursiya işinin təşkilinin prinsipləri: elmilik prinsipi; ardıcıllıq prinsipi; kütləvilik prinsipi.

Müxtəlif eksponatları araşdırmaq, tarixi faktları dəqiqləşdirmək, eksponatın aid olduğu dövrü müəyyənləşdirmək, eksponatın hansı mühüm hadisə ilə əlaqədar olaraq yarandığını və s. bu kimi digər problemləri araşdırmaq baxımından coğrafiya elminə xüsusi diqqətin ayrılması. Hər bir ekskursiya növlərinin tərəflərinə uyğun olaraq ekskursiya mətinləri hazırlanır. Ekskursiyalar dedikdə: 1.İcmal; 2.Tematik; 3.Tədris ekskursiyaları nəzərdə tutulur. İcmal ekskursiya - muzeyin ekspozisiyası ilə ümumi tanışlıq üçün nəzərdə tutulur. Tematik ekskursiya – konkret olaraq bir mövzuya həsr edilir.Tədris ekskursiyası tədris müəssisələri üçün nəzərdə tutulur.

Mövzu 5: Muzey işində müasir texnologiyanın tətbiqi

Dünya muzeylərində müasir texnologiyadan istifadə qaydalarına əsaslanmaq. Muzey fondlarında, ekspozisiya zallarında, arxiv-

də, kitabxanada müasir texnologiyaya olan tələblər, onlardan istifadə. Müasir texnologiyalarından istifadə edən muzeylərin dünya təcrübəsindən yararlanması üçün yeni paradiqmaların əsaslanması.

Muzeylərin funksional fəaliyyətində mühüm istiqamətlərdən olan populyarlaşdırma,informasiya və reklam işi. Muzey kolleksiyasının təbliği yolları və incəsənət vasitəsilə tərbiyə məsələləri. Başqa mədəniyyət müəssisələrdən fərqli olaraq muzeylərin apardığı işin səmərəsi.

Muzeylərdə informasiya bazasının rəqəmsallaşdırılması.Tarix və mədəniyyət abidələrinin elektron-informasiya sisteminə salınma qaydaları. Kolleksiyaların elmi qeydiyyat sistemində avtomatlaşdırma üsulları. Muzey fondlarının avtomatlaşdırılmasının qaydaları. Elektron qaydadan qorunan informasiyaların elmi əhəmiyyəti. Rəqəmsal bazanın yaradılması informasiyaları qoruyan faktor kimi.

II BÖLMƏ: İncəsənət profilli muzeylər: növ və tipləri

Mövzu 6:Bədii muzeylər

Bədii profilli muzeylər və onların formaları. İncəsənət muzeylərinin spesefik xüsusiyyətlərinin təhlili. Təsviri və tətbiqi sənət muzeyləri, Bədii muzeylər, Bədii qalereyalar və Sərgi salonlarının oxşar və fərqli cəhətləri. Təsviri və tətbiqi sənət muzeylərinin milli xüsusiyyətləri. Təsviri və tətbiqi sənət muzeyləriniTəsviri və tətbiqi sənət muzeylərini

Bədii muzeylərin zənginləşdirilməsində ədiblərin, ictimai xadimlərin yaradıcılıqlarının rolu. Yaradıcı şəxslərin əlyazmalarını qoruyan muzey fondları haqqında. Muzey fond və arxiv sənədlərinin komplektləşdirilməsinin üslubları. Bədii muzeylərin arxivlərinin qurulma qaydası.

Mövzu 7.Teatr muzeyləri

Teatr muzeyləri bədii profilli muzeylərin əsas tərkib hissəsi kimi. Teatr muzeylərinin fondu: kolleksiyaların özünəxsusluğu və tərkibi. Teatr xadimləri və onların yaradıcılıq diapazonları tədqiqat obyekti kimi.

Teatr incəsənətin bir növü kimi. Teatr muzeylərinin spesifik xüsusiyyətləri. Teatr muzeylərinin digər profilli muzeylərlə oxşar və fərqli cəhətləri. Teatrmuzeylərinin kolleksiyası bir yaxud bir neçə əlamətlərə uyğun olan, əksər hallarda bədii, vahid bir maraq dairəsi kəsb edən muzey predmetlərinin cəmi kimi.

Teatr muzeylərinin ekspozisiyanın elmi konsepsiyasının müddəaları:

- maddi və mənəvi mədəniyyətin əsl sərvətləri ekspozisiyanın əsası kimi;
- yardımçı materialların sayının azaldılmasının vacibliyi;
- fotosurətlərin, cədvəllərin, diaqramların, maketlərin, mətnlərin və s. hazırlanmasının məqsədyönlü olması;
- hər bir eksponatın daha diqqətləseçilməsinə nəzarətin artırılması;
- nümayiş etdirilən xatirə əşyalarının müxtəlif növlərə malik olmasına diqqətin artırılması;

Mövzu 8: Kino muzeylərinin funksiyası.

Kino muzeyləri vasitəsilə əhalinin maarifləndirmə işinin metod və formaları. Elmi-maarifçilik işi kino muzeylərinin fəaliyyətinin kütləvi iş forması kimi. Kino muzeylərində keçirilən elmi-maarif işinin geniş şərhi və təhlili.

Qloballaşma dövründə informasiya axının surətlə inkişafının kino muzeylərinin işinə təsiri. Kino muzeylərində əhali ilə işin təşkilindəelmi-maarif işinin təcrübə ilə inteqrasiyası metodu aktual problem kimi. Bu işdə kino muzeyinin müstəsna rolu.

Kino muzeyinin elmi-tədqiqat və mədəni-maarif müəssisəsi kimi sosial funksiyası. Muzey işində bütün vasitə və formalardan istifadə qaydası. Müxtəlif yaş qrupuna mənsub olan sosial qruplar təşkil edən muzey ziyarətçiləri ilə elmi-maarifləndirmə istiqamətində aparılan işlər. Milli kino tarixinə yiyələnmə, ümumtəhsil orta məktəblərində, koleclərdə, Universitetlərdə və s. yerlərdə bədii-silsilə xarakterli tədbirlərin təşkili işinə xüsusi diqqətin yetirilməsində kino muzeylərin rolu.

Müasir dövrdə elmi-informasiya axınının surətini nəzərə alaraq fasiləsiz olaraq elmi-maarif işinin kino muzeylərinin təcrübəsi ilə inteqrasiyasında qarşıya çıxan problemlərin həlli yolunun tapılması üzərində iş.

TÖVSİYƏ EDİLƏN ƏDƏBİYYAT

Azərbaycan dilində

1.Azərbaycan Respublikasının Qanunlar küllüyyatı. B.; Qanun, 2001., 314 s.

2.Bayramov A. Heydər Əliyev və muzeylərimiz. Bakı-1999., s.123.

3.Kataloq. Azərbaycanın memorial-xatirə muzeyləri. (dərslik) Azərbaycan dilində. Tərtib: R.Ağayev, M.Manafova, A.Əlizadə, E.Qurbanova. B: Mars Print, 2009 il, 232 səh. 120 şəkil.

4. Qurbanov B. Azərbaycan incəsənəti, təriflər, təhriflər. Bakı-2001, 243 s.

5.Qurbanova E. Milli bədii təfəkkürün formalaşmasında incəsənət muzeylərinin rolu. ADMİU. Mədəniyyətin aktual problemləri (elmi-məqalələr toplusu). 2000, s.102-106.

6.Qurbanova E. Muzeylərdə elmi-tədqiqat işinin təşkili və metodikası. "Muzeyşünaslıq" kursunun kompleks tədris proqramı. Tematik plan (V fəslin müəllifi). Bakı-2000, səh. 304., s.73-84.

7.Qurbanova E. İncəsənət vasitəsilə bədii mədəniyyətin ketləyə təsirində muzeylərin əhəmiyyəti. Mədəniyyət dünyası. Elmi məqalələr toplusu III buraxılış. Bakı-2001, s.97-102.

8. Dünya muzeyləri – Metodik tövsiyə xarakterli Kataloq. Bakı- 1995. (kiril əlif.) 145 səh., 2021-ci il təkrar nəşr (latın əlifbası ilə), Bakı-2021, 203 səh.

9.Qurbanova E. İncəsənət muzeyləri və milli müəyyənlik problemləri. "Qafqaz: Tarix, müasirlik və geosiyasi perspektivlər" beynəlxalq elmi konfransın tezisləri. Bakı-1998. "ELM" s.241-243.

10.Qurbanova E. Gələcək nəsillərin mədəniyyət sahəsində formalaşması günün vacib problemlərindən biri kimi. **Mədəniyyət:** Problemlər, perspektivlər (Elmi məqalələr toplusu) III Buraxılış, Bakı – 2002 s. 65-68.

11.Qurbanova E. Milli təhsil və milli incəsənətin əhəmiyyəti. **Mədəniyyət:** Problemlər, perspektivlər (Elmi məqalələr toplusu) III Buraxılış, Bakı - 2002 s. 53-56.

12.Qurbanova E.Muzeylər Milli irsin qoruyucusu və təbliğatçısı kimi. "Musiqi dünyası". Üzeyir Hacıbəyov "Leyli və Məcnun" 100, 1-2/35. 2008, s.224-227.

13.Elfira Qurbanova. Milli mədəniyyət dünya mədəniyyətinin əsası kimi. AMEA Memarliq və İncəsənət İnstitutu. İncəsənət və mədəniyyət problemləri 2 (24) Bakı – 2008, s.14-18.

14.Qurbanova E. Muzeyşünaslığın bir elm kimi meydana gəlməsi. Mədəniyyət dünyası, elmi-nəzəri məcmuə, XV buraxılış, Bakı, ADMİU, 2008, s.303-307.

15.Qurbanova E. İncəsənət muzeyləri və sərgi salonları. Sosial-siyasi problemlər (elmi-nəzəri jurnal), Bakı, 2008, №2-3 (19-20) Bakı-2008, s.101-104.

16.Qurbanova E., Məlikov F.Tarixi yaşadan muzeylər və muzeyşünaslar.Sosial-siyasi problemlər (elmi-nəzəri jurnal), Bakı, 2009, №3 (23), s.155-160.

17.Qurbanova E.. Tarix elminin muzeyşünas cəfakeşləri (Milli Azərbaycan Tarixi Muzeyinin materialları) Azərbaycan Arxeologiyası və etnoqrafiyası. Bakı 2010, 2, s. 164-168.

18.Qurbanova E. Mədəni irsin mühafizəsi və muzeyşünaslığın problemlərinə dair. Mədəni müxtəliflik sosial-siyasi dəyər kimi.Kulturoloqların II milli forumu.Beynəlxalq elmi-praktik konfrans. Baku – "Elm"- 2010, s. 261-270.

19.Qurbanova E.Əlizadə A. "Muzeylərdə elmi-tədqiqat işinin təşkili və metodikası"

Dərslik. Bakı – 2011, səh.271 (yenidən redaktə edilərək təkrar nəşr) Bakı-"Gənclik"-2015, 271 səh., Bakı-2017 (yenidən işləməklə təkrar nəşr) 239 s.

20.Qurbanova E.H., Verdiyev E.Ə.. Azərbaycan təhsil sistemində İKT tətbiqi. Azərbaycan Dövlət Aqrar Universiteti. Qloballaşma şəraitində təhsil və elmin inkişaf problemləri. Beynəlxalq elmi-praktik konfransın tezisləri (03-05 Oktyabr 2011) Gəncə -2011. s.230-231.

21.Qurbanova E. Qloballaşma şəraitində kulturoloji innovasiyalar və sosial-mədəni inkişaf. Beynəlxalq konfrans materialları 21-22 dekabr 2012. ADMİU-nun 90 illik yubileyinə həsr olunur. Bakı – "Təknur" – 2012. səh.319-327.

22.Qurbanova E. (ADMİU) Müasir muzey fəaliyyətinin elmi-tədqiqat işlərində yeniliklər. "Mədəniyyətlərarası dialoqda ənənəvi incəsənətin rolu". ADMİU – nun 90 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfransın materialları. Bakı – 2012. s. 119-122.

23.Qurbanova E. Müasir muzey fəaliyyətində tarixiliyə elmi münasibət. Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyi. II Respublika Elmi konfransının materialları. Bakı – 18.VI. 2012. S.123-130.

24.Qurbanova-Məlikova E. "Bədii mədəniyyətin inkişafında incəsənət muzeylərinin rolu" Monoqrafiya. Bakı, 2014, 160 səh.

25.Muzeylər haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı, 2000.

26.Muzeyşünaslıq (dərslik), Bakı, "Mars-Print", 2002, 439 səh.

27.Məlikova E. Azərbaycan Respublikası Muzey işi üzrə elmi-metodiki kabinənin yaranmasının tarixi. Təsviri və dekorativ-tətbiqi sənət məsələləri. № 1 (7) Bakı – 2011. s.73-77.

28.Məlikova E.İncəsənət muzeyləri və milli müəyyənlik problemləri. Müasir Dünya inteqrasiyası və müqavimət proseslıri. Azərbaycan dövlətçiliyinin 94 illiyinə və Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr edilən beynəlxalq elmi konfransın materialları. Bakı, Azərbaycan Universiteti, 9 iyun 2012-ci il. "Elm və təhsil" Bakı – 2012. s.316-321,

29.Məlikova E. "Azərbaycanda muzeylərin inkişafında İkt-nin rolu".Multikulturalizm prosesləri qloballaşma şəraitində.Beynəlxalq elmi-nəzəri konfransın materialları ADMİU-nun 90 illiyinə həsr olunur. Bakı – 2014.s.172-176.

30.Məlikova E. Tarix profilli muzeylərin yaranma səbəbləri.Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. XVI Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı: ADMİU-nun mətbəəsi, 2017, s.272-275.

31.Məlikova-Qurbanova E. Muzeyşünaslıq elminin muzey işi ilə əlaqəli təhlili. “Muzeyşünaslığın tədrisi problemləri” II Respublika elmi konfransın materialları, Bakı – 2018,s.48-53.

32.Məlikova-Qurbanova Ə. Azərbaycanda muzeyşünaslıq elminin formalaşmasında Milli Azərbaycan Tarixi Muzeyinin rolu (Milli Azərbaycan Tarixi Muzeyinin atxiv materialları əsasında) Milli Azərbaycan Tarixi Muzeyi – 2018. Toplu. Bakı, “Elm” nəşriyyatı, 2018, s.290-298.

33.Məlikova-Qurbanova E. “Muzeyşünasların nəzəri və təcrübi biliklərinin muzey vasitəsi ilə inkişafı” Bakalavr və magistr təhsil pilləsində təhsil alan tələbələr üçün metodiki vəsait. Bakı – “Elm”-2019, 106 səh.

34.Məlikova-Qurbanova E. XX əsrin ikinci yarısında (1950-1960-cı illər) Azərbaycanda muzey işində aparılan islahatlar. Azərbaycan muzeyi – 100. Muzeyşünaslığın tədrisi problemləri III Respublika Elmi Konfransın materialları. Bakı – 2019, Səh.77-81.

35.Məlikova-Qurbanova E. Müasir muzey fəaliyyətində yeniliklər. AMEA Milli Azərbaycan Tarixi Muzeyi. “İstiqlal” muzeyinin 100 illiyinə həsr olunmuş “Muzey, arxiv və kitabxanalarda qorunan milli dəyərlərin tədqiqi, təbliği, mühafizəsi və bərpası” III Respublika Elmi Konfransının materialları. Bakı – 18.06.2019, s. 156-162.

36.Məlikova-Qurbanova E. XX əsrin ikinci yarısında (1950-1960-cı illər) Azərbaycanda muzey işində aparılan islahatlar. Azərbaycan muzeyi – 100 Muzeyşünaslıq kafedrası, Muzeyşünaslığın tədrisi problemləri III Respublika Elmi konfransın materialları. Bakı – 2019, s.77-80.

37.Məlikova-Qurbanova E. Azərbaycan Milli Xalça Muzeyinin “Təsviri və dekorativ-tətbiqi sənət məsələləri” elmi toplusu. Muzeyşünaslığın inkişafında Azərbaycanın sənətşünas alimi Mürsəl Nəcəfovun rolu. Bakı, Çaşıoğlu, 2019, 132 səh., səh-28-34.

38.Məlikova-Qurbanova E. Muzey mənbəşünaslığı: tədqiqatlar və faktlar. Mədəniyyət Dünyası. Azərbaycan Dövlət XXXVIII buraxılış, Bakı, 2020. səh.77-81.

39.Məlikova – Qurbanova E. Azərbaycan muzeyləri Nizami irsinin təbliğatçısı kimi. Nizami dünyası və təsviri sənət. Respublika elmi-nəzəri konfransının materialları. Bakı, 2021.103 səh., səh.55-63.

40.Məlikova (Qurbanova) E. Azərbaycan Muzeyşünaslığı (Monoqrafiya). I cild, Bakı "Elm", 2021, 232 səh.

41.Məlikova (Qurbanova) E.. Azərbaycan Muzeyşünaslığı (Monoqrafiya). II cild, Bakı "Elm", 2022, 464 səh.

42.Məlikova-Qurbanova E. Bakı muzeyləri fənni üzrə proqram. Bakı: "Elm", 2022, - 32 s.

Rus dilində

43.Вопросы истории музейное дело в СССР: Сб.науч.тр.М. 1962, 432 с.

44.Гарник В.Я. Очерки музейного дела Аз. ССР. Москва 1971., 254 с.

45.Курбанова-Меликова Э. «Профессиональная подготовка музееведов к музейному делу».Международный научный онлайн семинар «Актуальные проблемы современного музееведения: наука, образование, практика» Академии Художеств Узбекистана Национальный Институт Художеств и дизайна Камолиддина Бехзода (на русском яз.)Ташкент-2021 (31 марта), стр. 62-65.

46.Курбанова-Меликова Э. «Подготовка музееведов для работы в Художественных музеях» Сборник материалов международной научно-практической –конференции Инновационные процессы в художественном образовании: стратегия , теория и практика развития. Академии Художеств Узбекистана Национальный Институт Художеств и дизайна Камолиддина Бехзода (на русском яз.) Ташкент-2021. стр.76-78.

47.Ломунова А.К. Комплектование фондов литературных музеев материалами по современности (Конспект лекций). М: 1988, 42 с.

48.Музееведение. Музей исторического профеля. М. 1988.,430 с.

49.Мейран П. Новая музеология / Museum.1985.№ 148., 201 с.

50. Очерки истории Музейное дело в СССР. вып. V. МОСКВА 1963., 403 с.

51.Музееведение. На пути к музею XXI века (сб. научных трудов). М: 1989, 220 с.

52.Музейная екскурсия. Методическое пособие/Национальный музей Республики Татарстан.- Казань, 2018 – 52 с.

53.Меликова - Гурбанова Э. Кадровая подготовка специалистов-музееведов по изучению экскурсионного метода. Turizm və qonaqpərvərlik tədqiqatları . Tourist and hospitality studies. Beynəlxalq jurnal /İnternational journal li 4, Say 4, 2015 / Volume 4, Number 4, 2015 c. 281-285.

54.Меликова – Гурбанова Э. XX век: начало и развитие мултикультурального общества Азербайджана. “Multikulturalizm konsepsiyasının sosial-fəlsəfi və mədəni əsasları” mövzusunda respublika elmi-nəzəri konfransın materialları. Bakı 2016., c. 66-69.

55.Меликова - Гурбанова Э.АГУКИ, «Наукаведческие понятия музееведения: факты и анализ» Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. XV Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı. 02 may, 2016-cı il, c.307-313.

56.Меликова-Гурбанова Э. Музейное образование как музееведческая специальность. Şərq ölkələri Beynəlxalq Memarlıq Akademiyası. Memarliq, şəhərsalma tarixi və bərpası. Toplu № 2 (16) 2018. s.128-132.

57.Очерки истории музейного дело в СССР. Сб.научных трудов.,Москва 1971.,467 с.

58. Овчинникова, З.А. Роль музеев в формировании, поддержке и трансляции исторической и культурной памяти

/З.А.Овчинникова// Вестник культуры и искусств. – 2018.-№ 1 ((53). - с.82-89

59.Проблемы каталогизации произведений искусства в художественном музее. Л: 1988, 120 с.

60.Рестоврация, консервация и хранения музейных художественных ценностей. М: 1990. 203 с.

61.Разгон А.М.Место музееведение в системе наук // Музей и современность: Сб.науч.тр.М., 1986., 243 с.

62.Равукович Д.А. Социальные и информационная система музея. М. 1984., 231с.

63.Сафаралиева Г. Исторические памятники и топонимы Азербайджана. Библиография. Баку – 2016.-500 с.

64.Тверская Д.И.Музей как научно-исследовательство учреждение. Музейное дело в СССР. М.1974., с.381

65.Фигол Д. И Методика научной пропаганды и культурно-массовой и научно-просветительной работы музеев. М., 1974., с.324

66. Юреневна Т.Ю.Музееведение. Учебник для высшей школы., М.2004, 445 с.

Türk dilində

67.Melikova – Gurbanova E. Muzeçiligin Bilimsel Kavramlar Açısından Anlamı. Belgü. Ardahan Universiteti İnsani Bilimlər ve Edebiyat Fakültəsi Dergisi, Yil: 1 /Sayı: 3/ Bahar 2016 – Altı ayda bir yayımlanır. s. 105-117

İngilis dilində

68.İCME, İNTERCOM & İKOM Azerbaijan Hybrid Joint Conference. Transforming Collecting Policies in Museums: the Need for Leadership and Societal Responsibility. 13-15 October 2021 Bakı, Azerbaijan. Proqramme. www/icomaz/az s.25

İnternet resursları

69.http://thekoray.com/ino

70.azerbaijans.com https://www. azerbaijans.com>cont...

71.http: //www.advantour.com/rus/azerbaijan

72.CIDOC Guidelines for Vestev Objekt İnformation: Forevord. 1995.P. 19-23. Электронный ресурс: httr://www/willpowerinfo.meby/co/uk/cidok/guide/ guidefor/htm (свободный доступ: дата обращения – 30.03.2017).

73.Эльфира Маликова. Елена Эльтс. Теоретическое осмысление запретительных музейных практик: вызовы и диверсификация как основной метод установления табу. ikompraque2022.qcon.me..https:// ikompraque2022.qcon.me/topics

74.Elfira Melikova – Qurbanova. Azərbaycan muzeylərində Nizami irsi. İnnovativ Texnologiyalar Beynəlxalq elmi-araşdırmalar jurnalı. Nömrə 19, 2021səh.75-93 (DOI: 10.30546/2616-4418.19.2021.75) http:www/ejsr.orq/Az_ Main_ Arxiv_19_ 2021. aspx

Sərbəst mövzular

1. Muzeyvari təşkilatlar haqqında.
2. Muzey kabinələrinin tarixi.
3. İlk muzeylərin yaranma tarixi.
4. Yeni tipli muzeylərin tarixinə dair.
5. "Kolleksiya" anlayışı.
6. "Muzey əhəmiyyətli əşya" anlayışının təhlili.
7. Muzey kolleksiyasının dəyəri.
8. Muzey kolleksiyasının qorunması haqqında.
9. Muzeyşünaslıq elminin yaranması tarixinə dair.
10. Muzeyşünaslıq elminin inkişaf mərhələsi.
11. Muzeyşünaslıq elminin əsasını qoyan alimlər.
12. Muzeyşünaslığın predmeti.
13. Muzeyşunaslığın quruluşu.
14. Muzey işinin tarixi.
15. Muzey işinin ümumi nəzəriyyəsi.
16. Muzey işinin nəzəriyyəsi.
17. Fond işinin nəzəriyyəsi.
18. Fond avadanlıqlarının elmi obyekt kimi öyrənilməsi.
19. Fondların muzeyşünaslıq tədqiqatları.
20. Fondların komplektləşdirilməsi haqqında.
21. Muzey kolleksiyasının qorunması üsulları.
22. "Əştanın pasportu" haqqında.
23. Fond inventar kitabı haqqında.
24. "Muzey şöbələri" anlayışı.
25. Muzeylər vasitəsilə maarifləndirmə işi.
26. Muzeylərdə elmi-maarif işi.
27. Muzey pedaqogikası haqqında.
28. Muzey tədbirləri haqqında.
29. Şifahi xalq ədəbiyyatı ilk qalereyası.
30. İncəsənətin növləri.
31. Avropa və muzeylər.
32. Muzey və estetik tərbiyə.
33. Avropa ilk qalereya haqqında.

34. Cəmiyyət və muzey.
35. Muzeylər və təhsil müəssisələri.
36. Universitet muzeyləri.
37. Azərbaycan muzeyşünaslığının, tarixi və mövcud vəziyyəti.
38. Azərbaycanın sənətşünas alimləri haqqında.
39. Cəmiyyət və muzeylər.
40. Muzey və humanizm.
41. Muzeylərdə bədii yaradıcılıq işləri.
42. Tarix profilli muzeylərin yaranması səbəbləri.
43. Bədii profilli muzeylərin tarixinə dair.
44. İncəsənət muzeyləri haqqında ümumi anlayış.
45. Texniki muzeylərə dair təhlillər.
46. Tarix-diyarşünaslıq muzeyləri haqqında.
47. Memorila muzeylər haqqında.
48. Ev-mənzil muzeyləri haqqında.
49. "Mədəniyyət sərvətləri" anlayışının təhlillər.
50. Kommunikasiya nəzəriyyəsi.
51. "Muzey mənbəşünaslığı anlayışı" haqqında.
52. Muzey texnikası haqqında
53. Muzey fəaliyyətinin mərhələləri.
54. Mədəni irs anlayışı haqqında.
55. Tədqiqat muzey işinin əsası kimi.
56. Muzeylərin elmi-tıdqiqatçılıq fəaliyyətinin planlaşdırılması.
57. Muzeylərin profil fəaliyyəti üzrə tədqiqi.
58. Muzeylərin elmi-tədqiqatçılıq fəaliyyətinin mövcud vəziyyəti.
59. Muzey ekspozisiyasının estetik təhlili və tədqiqi.
60. Muzey eksozisiyasının bədii estetik əsasları.
61. Tarixi mədəniyyət abidələrinin tədqiqi.
62. Muzey auditoriyasının öyrənilməsi və Proqnozlaşdırılması.
63. Muzey dərnəkləri haqqında ümumi məlumat.
64. Muzey klubları haqqında ümumi məlumat.
65. "Sərgi anlayışı"nın təhlili.
66. Azərbaycan incəsənəti nümunələri dünya muzeylərində.

67. Muzey kommunikasiyası üzrə tədqiqatların məzmunu və istiqamətləri.
68. Yeni tipli muzeylərin yaranması və tədqiqi tarixinə dair məlumatlar.
69. Yeni profilli muzeylərin yaranmasında muzeyşünaslıq elminin rolu.
70. Müasir muzey fəaliyyətinin elmi-tədqiqat işlərində yeniliklər.
71. Sərgi salonlarının fəaliyyət istiqamətləri
72. V.Səmədova adına Sərgi Salonunun yaradıcılıq istiqamətləri
73. Səttar Bəhlulzadə adına Sərgi Salonunun yaradıcılıq istiqamətləri
74. Milli İncəsənət Muzeyinin yaradıcılıq inkişafı
75. Müasir İncəsənət muzeyinin yeni muzey konsepsiyası əsasında təşkili xüsusiyyətləri.
76. Bakı incəsənət qalereyasının iş xüsusiyyətləri.
77. İncəsənət əsərlərinin əsas xüsusiyyətləri
78. Muzey Mərkəzinin fəaliyyəttarixinə dair
79. C.Cabbarlı adına Teatr muzeyinin fəaliyyət tarixinə dair
80. C.Cabbarlı adına Teatr muzeyinin eksponatları haqqında
81. C.Cabbarlının ev muzeyinin tarixinə dair
82. S.Vurğunun ev muzeyinin tarixinə dair
83. H.Cavidin xatirə muzeyinin tarixi
84. C.Məmmədquluzadənin ev muzeyinin tarixi
85. N.Nərimanovun ev muzeyinin tarixi
86. Rusiyanın Dövlət Kino Muzeyi haqqında
87. Dünya kino muzeyləri haqqında qısa icmal
88. “Fransa sinematikası” muzeyi haqqında
89. Alman kino muzeyi haqqında
90. Londonkino muzeyi haqqında
91. Avstriya kino muzeyi haqqında
92. Niderlandiyanın kino muzeyi haqqında
93. “Hərəkət edən təsvirlər” muzeyi haqqında
94. Çin Milli kino muzeyi haqqında
95. “Kino rəssamə” anlayışının (1 film nümunə göstərməklə) təhlili

96. “Kinofestivallar”a həsr edilmiş tədbirlər haqqında
97. Azərbaycan Mərkəzi kino muzeyinin “Ulduzlar sönmür” sərgisi haqqında
98. Azərbaycan kino mərkəzində keçirilən tədbirlər haqqında
99. Azərbaycanda “kino günü”nün qeyd edilməsi haqqında.
100. Azərbaycan Kino Muzeyində qorunan sənədlər haqqında

Çapa imzalanıb: 18.09.2024
Format: 60x84 1/4. Qarnitur: Times.
Həcmi: 6 ç.v.

ADMİU-nun mətbəəsində çap edilmişdir.

Ünvan: Bakı şəhəri, H . Zərdabi küç. , 39a
Telefon: (+994 12) 434-50-04